UOT 78.03
HTTPS://DOI.ORG/10.59849/2311-8482.2024.1.161

GÜLMƏMMƏD ŞAHVERDİYEV*

# ETNİK RƏQSLƏRİN ELMİ ARAŞDIRILMASI VƏ TƏSNİFİ MƏSƏLƏLƏRİ

*Təqdim edilən məqalədə etnik rəqslərin elmi araşdırmalardakı mövqeyinə nəzər salınır və təsnifat məsələləri ilə bağlı mövcud problemlər işıqlandırılır. Müəllif xalq rəqslərinin tədqiqinin həyata keçirildiyi müxtəlif elm sahələrində yer alan mənbələrlə bağlı məlumat verir. Eləcə də məqalədə xalq rəqsinin bilavasitə xoreoqrafiya elmində öyrənilməsinin əhəmiyyəti vurğulanır. Bu sahədə araşdırılması vacib olan problemlər sırasında təsnifat məsələsi diqqət mərkəzinə çəkilir. Müəllif bu məsələ ilə bağlı öz münasibətini sərgiləyir. Eyni zamanda etnik rəqslərin məhz bu yöndə təsnif edilməsinin vacibliyini göstərərək, onun mümkün meyarlarını da təqdim edir.*

***Açar sözlər:*** *etnik rəqslər, təsnifat, xoreoqrafiya, musiqi, dairəvi, ayin.*

## Giriş

Azərbaycan xalq rəqsləri özündə aid olduğu etnosun minillərlə formalaşan və cilalanaraq müasir dövrə qədər gəlib çatan bədii təfəkkürü, dünyagörüşü, adət-ənənələri, milli-mənəvi dəyərləri kimi mühüm informasiyanı qoruyub saxlamışdır. Bu da xalq rəqsinin öyrənilməsində etnik kimliyin üzə çıxarılması, milli dəyərlərin mahiyyətinin açılması kimi mühüm məsələləri diqqət mərkəzinə çəkərək mövzunun aktuallığını ortaya qoymuş olur. Sinkretik sənət sahəsi kimi formalaşan rəqslər həm də insan təfəkkürünün müxtəlif mərhələlərində fərqli mahiyyət kəsb etmişdir. Tədqiqatçılar rəqsin (və yaxud da rəqsə bənzər hərəkət və jestlərin) olduqca qədim dövrə, hələ dilin ünsiyyət vasitəsi kimi təşəkkül tapmadığı bir mərhələyə aid olduğunu ehtimal edir.

## Əsas təhlil

Arxeoloji məlumatlara istinad edən tədqiqatçı alim V.N.Karpenko yazır: "Arxeoloji materiallar göstərir ki, rəqs musiqi və poeziyadan daha öncə, üst poleolit dövründə təşəkkül tapmışdır. Bununla da rəqs nəinki ən qədim incəsənət növü kimi, həm də insanda yaradıcı başlanğıcın ilk təmsilçisi kimi çıxış edir" [11, s.342]. Bu mərhələ e.ə. 35-12 min illəri ehtiva edir. Bügünkü rəqs sənətinin formalaşmasında təməl rolunu oynayan əl və ayaq hərəkətləri, jestlər bəşər tarixinin hər mərhələsində fərqli funksiya daşımış, insan təfəkkürünün fərqli ehtiyaclarından irəli gələrək tədricən zənginləşmişdir. Bu mənada dairəvi rəqsləri tədqiq edən F.Nəbiyevanın fikirləri maraqlıdır. O, bu mərhələləri belə bölür: "I mərhələni ayin mərhələsi adlandırmaq olar.(...), ikinci mərhələ mərasimlərlə bağlıdır" [8, s.13]. Göründüyü kimi, bu rəqslərin formalaşmasında mifoloji təfəkkürün mövcud olduğu ilkin dövrlər mühüm rol oynamışdır. Nəticədə etnik rəqslərdə aid olduğu xalqın dünyagörüşünə xas olan ən qədim cəhətlərin toplanması baş vermişdir. Bu mənada Azərbaycan xalq rəqslərinin ən qədim nümunəsi hesab edilən "Yallı"lar bariz nümunə kimi çıxış edir. Nəzərə alsaq ki, bu rəqslər dairəvi növə aiddir, deməli xoreoqrafik məzmunda həm ayin, həm də mərasim mərhələlərinin izlərini görmək mümkündür. Təsadüfi deyil ki, Azərbaycan xalq rəqslərini tədqiq edən mütəxəssislər öz axtarışlarını məhz "Yallı" rəqslərinin tarixindən başlamağa üstünlük verir. Qeyd etmək lazımdır ki, xalq rəqsləri elmin müxtəlif istiqamətlərində öyrənilmiş, o cümlədən tarix, etnoqrafiya, folklorşünaslıq, filologiya, musiqi, xoreoqrafiya kimi elm sahələrində mühüm nəticələr əldə edilmişdir. Xalq rəqsləri özündə nəinki təfəkkürdən irəli gələn cəhətləri, həm də aid olduğu xalqın əmək fəaliyyəti, mərasim ənənələri, kişi, qadın və kollektiv növlər, teatr sənəti ilə bağlı olan ilkin meyarları, musiqi və xoreoqrafik informasiyanı daşıyır. Bu baxımdan rəqs sənəti haqqında ən müxtəlif sahələrdə aparılan araşdırmalardan məlumat almaq mümkündür.

Elmi ədəbiyyatda həm xalq rəqsi, həm də etnik rəqslər ifadəsi işlədilir. Bu səbəbdən apardığımız araşdırmada bu terminlərin kəsb etdiyi məna yükünə də aydınlıq gətirmək lazımdır. Bir çox tədqiqatlarda müəlliflər hər iki termini eyniləşdirərək verir və xalq rəqslərini həm də etnik rəqslər kimi adlandırır. "Xalq (etnik) rəqsləri dedikdə - hər hansı bir xalqa mənsub olan və onun rəqs ənənələri

əsasında formalaşan rəqslər nəzərdə tutulur” [10, s.5]. Tarix araşdırmalarında bilim adamları etnos və xalq anlayışlarının yaranmasını təqribi olaraq qəbilə icmalarının dağıldığı dövrlərlə əlaqələndirir. Bu mənada hər iki anlayışın eyni və ya yaxın mənalar ehtiva etməsi təbiidir. Azərbaycan çoxmillətli (yuxarıda dediklərimizə millət anlayışını da daxil etmək olar) dövlət olduğundan burada müxtəlif etnoslar yaşayır və bütünlükdə xalqın tərkib hissəsi kimi öz mövcudluğunu sürdürür. Bununla belə, hər bir etnosun özünəməxsus mədəni dəyərləri, yaşam tərzi, adət-ənənələri, musiqisi və s. digərindən seçilir. Etnik rəqslər də bu mənada həmin spesifikliyi özündə daşıyır. Lakin bütün etnik özünəməxsusluqlar vəhdət təşkil edərək bügünkü Azərbaycan xalq rəqslərinin yaranmasında iştirak etmiş, onu zənginləşdirmişdir. Bu səbəbdən milli rəqslərimizin musiqi və xoreoqrafik məzmununda müxtəlif etnik cəhətləri hiss etmək mümkündür.

Etnik rəqslərin elmi ədəbiyyatda araşdırılması dünya alimlərinin daim diqqət mərkəzində olan aktual tədqiqat obyektlərindən biri olsa da, Azərbaycanda bu mövzu nisbətən daha gənc olan etnoqrafiya, etnomusiqişünaslıq, xoreoqrafiya tədqiqatlarında yer alır. Rəqs sənəti əvvəldə də qeyd etdiyimiz kimi, sinkretik xarakter daşıdığından onun haqqında ilkin elmi məlumatlar arxeologiya, etnoqrafiya mənbələrində verilir. Həmçinin rəqs xalq yaradıcılığının bir ünsürü kimi filoloji, folklorşünas, teatrşünas tədqiqatçıların diqqətini cəlb etmişdir. Xalq yaradıcılığında həm də oyun adlandırılan rəqs məfhumunun müxtəlif aspektlərdən araşdırılması xoreoqrafiya elmi üçün də dəyərli informasiya vermişdir. Xüsusilə, bu elmi mənbələr rəqslərin təsnifatında mühüm rol oynamışdır.

Rəqs ilk növbədə musiqi və plastikanın vəhdətindən doğan sənət sahəsidir. Onun araşdırılmasında hər iki sahənin elmi meyarları, metod və yanaşmaları nəzərə alınmalıdır. Xalq rəqslərinin toplanması, nəşri və tədqiqi məsələsi musiqişünas alimlər tərəfindən XX əsrin əvvəllərindən başlayaraq həyata keçirilmiş və bu sahədə mühüm nailiyyətlər əldə olunmuşdu. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli başda olmaqla bir sıra M.Maqomayev, A.Zeynallı, Q.Qarayev, F.Əmirov, S.Rüstəmov, Z.Bağırov, C.Hacıyev, M.İsmayılov və digər musiqiçilər ölkənin müxtəlif rayon və kəndlərinə üz tutaraq xalq musiqiçilərindən bu qiymətli el xəzinəsini toplamış, nota salaraq məcmuələr şəklində çap etdirmişdilər. XX əsrin ikinci yarısında da bu vacib iş B.Hüseynli, Ə.İsazadə, N.Məmmədov və digər bəstəkar və musiqişünaslar tərəfindən davam etdirilərək xeyli sayda rəqslər toplanmış, elmi tədqiqatlar aparılmışdı. Müasir dövrdə bu işdə mühüm nəticələr əldə etmiş musiqişünas alim Rauf Bəhmənlinin nailiyyətləri xalq rəqslərinin toplanması, nota salınaraq nəşr edilməsi və elmi araşdırılması baxımdan xüsusi olaraq qeyd olunmalıdır.

Musiqişünaslıq araşdırmalarında etnik rəqslərin musiqi materialı tədqiq edilir, eləcə də qismən yaranma tarixi, ifaçıları (musiqiçilər nəzərdə tutulur), adının mənası və s. işıqlandırılır. Təsadüfi deyil ki, xoreoqrafiyaşünaslar öz tədqiqatlarında musiqi və rəqsin vəhdətindən doğan “rəqs üçün nəzərdə tutulan musiqi”, “rəqs musiqisi”, “rəqsvari musiqi” və s. kimi müxtəlif ifadələrə yer verirlər. Lakin, rəqs ilk növbədə “bədən dili” adlandırılan plastik hərəkətlər məcmusudur və onun bir janr kimi öyrənilməsində bu amil ən mühüm yerdə durur.

Etnik rəqslərin bilavasitə xoreoqrafik məzmunda araşdırılması öncə praktik yaradıcılıq sahələrindən qaynaqlanmışdır. XX əsrin ortalarında Azərbaycan klassik balet sənətinin yaradıcısı Xalq artisti Qəmər xanım Almaszadə, eləcə də Xalq artisti Əlibaba Abdullayev, ilk rəqqasə xanımlarımızdan biri və birincisi olan Xalq artisi Əminə xanım Dilbazi və digər rəqs ustaları yaradıcılıq sərhədlərini genişləndirmək məqsədilə Azərbaycanın müxtəlif bölgələrinə səfərlər etmişdilər. Bu səfərlərdə xalq rəqslərini yerli camaatdan öyrənmiş ustad sənətkarlar onun əsas elementlərini mənimsəyərək səhnəyə gəlməsinə, təkmilləşməsinə və peşəkar meyarlar əldə etməsinə nail olmuşdular. Bu səfərlər həm də bir sıra vəsaitlərin ərsəyə gəlməsi ilə də nəticələnmişdi ki, onlardan biri də 1959-cu ildə Q.Almaszadənin tərtib etdiyi “Azərbaycan xalq rəqsləri” metodik vəsaitidir. Bu vəsaitdə xalq rəqsləri haqqında qısa məlumat verildikdən sonra ifaçılıq üsulları, əsas hərəkət və jestlər, rəqs tapşırıqları, eləcə də müəyyən rəqslərin sxem üzrə icra qaydaları şərh edilmişdir. Eləcə də rəqslərin metro-ritmik ölçüləri, forma xüsusiyyətləri haqqında məlumat verilir. “Bir qayda olaraq Azərbaycan xalq rəqsləri üç hissədən ibarət olur: birinci fövrə boyu sürətlə gediş; ikinci lirik hissədir..(...); üçüncü yenə dövrə boyu sürətlə, təntənə və böyük coşğunluqla gəziş” [2, s.7]. Müəllif xalq rəqslərini əsas etibarilə kişi və qadın rəqsləri kimi təsnif etmişdir.

Xalq rəqslərinin xoreoqrafik məzmununun araşdırılmasında tədqiqatçı alim Kamal Həsənovun da mühüm töhfələri olmuşdur. Onun 1983 və 1988-ci illərdə nəşr edilmiş “Qədim Azərbaycan xalq

rəqsləri" və "Azərbaycan qədim folklor rəqsləri" monoqrafiyaları özündə qiymətli informasiya daşımaqla yanaşı, xeyli sayda xalq rəqslərinin tarixi, süjeti və icra qaydaları ilə bağlı dəyərli tədqiqat materialı təqdim edir. Birinci kitabda müəllif xalq rəqslərinin tarixinə nəzər salmış, eləcə də onları məzmununa, obraz səciyyəsinə və süjet xəttinə görə qruplara ayıraraq təsnif etmişdir. K.Həsənovun təsnifatında xalq rəqsləri "əmək, mərasim, məişət, idman, döyüş, oyun, kütləvi janrlar" kimi qruplaşdırılmışdır [6, s.22]. İkinci kitabında müəllif süjetli rəqsləri əsas tədqiqat obyekti olaraq seçmişdir. Burada xalq rəqslərinin artıq unudulmuş nümunələrinə yer verilir ki, tarixi-etnoqrafik baxımdan mühüm əhəmiyyət kəsb edir. "Qədim folklor rəqslərini olduğu şəkildə saxlamaq mümkün olmayıb. Çünki qocaların danışdıqları süjetlər dolaşıq, vəziyyətlər isə elementar və qeyri-dəqiqdir. Ona görə də biz çoxillik təcrübəyə əsaslanaraq həmin rəqsləri quruluş cəhətcə tamamlayıb, lazımi qaydada bərpa etməyə çalışmışıq" [7, s.4]. Müəllifin təqdim etdiyi süjetlər əsas etibarilə oyun-rəqslər, rəqs-tamaşalar kimi həm də qədim mərasim ənənələrindən xəbər verir. Kitabda 57 xalq rəqsinin süjeti və icra qaydaları öz əksini tapmışdır.

Rəqs sənətinə maraq müstəqillik dövründə və xüsusilə son onilliklərdə daha da artmışdır. Burada elmi tədqiqatların, toplama işlərinin, sahə araşdırmalarının da rolunu qeyd etmək lazımdır. Etnik dəyərlərin təbliği və təmsili məsələsinin müstəqil Azərbaycan Dövlətinin mədəniyyət siyasətində mühüm yer tutması öz təsirini xalq rəqslərinin də elmi və praktik baxımdan öyrənilməsinə göstərmişdir. Peşəkar rəqs kollektivləri xalq rəqslərini dünyanın ən mötəbər səhnələrində uğurla təmsil edir. Bu sahədə qazanılan uğurlar rəqs ustalarını elmi tədqiqatlara da sövq edir. Son zamanlar ərsəyə gələn dəyərli mənbələrdən ustad sənətkarlar Əlibaba Abdullayev, Əminə Dilbazi, Leyla Vəkilova, Roza Cəlilova və digər rəqs xadimləri haqqında yazılmış monoqrafiyalar, eləcə də Ə.Rəhmanlı və X.Bəşorovun "Milli rəqs sənəti", A.Əhmədovun "Azərbaycan milli rəqsləri", Rauf Bəhmənlinin "Azərbaycan qədim rəqs havaları", "Azərbaycan Cəngi rəqsləri", "Azərbaycan Qaytağı rəqsləri", "Azərbaycan gəlin havaları" və s., S.Fərziyevanın "Azərbaycanın cənub-şərq bölgəsinin "Halay" rəqs-mahnıları" kimi kitabların adlarını çəkə bilərik. Bundan başqa L.Zöhrabova, R.Bəhmənli, E.Dadaşova və digər alimlər rəqs sənətinin müxtəlif aspektlərdən apardığı tədqiqatlar da bu sahədə görülən işlərin bir qismini ehtiva edir. Adıçəkilən kitabların çox hissəsi musiqişünas alimlərin payına düşür. Bu isə deməyə əsas verir ki, rəqslərin xoreoqrafik məzmunda araşdırılması ilə bağlı hələ də mövcud boşluqlar qalmaqdadır. Nəticə etibarilə bu fakt təqdim edilən məqalənin aktuallığını, eləcə də elmi əhəmiyyətini ortaya qoymuş olur.

Rəqslərin bilavasitə xoreoqrafik məzmunda təsnif edilməsi məsələsi də öz həllini gözləyən problemlər sırasındadır. Bu zamana qədər müxtəlif müəlliflərin təqdim etdiyi təsnifatlar bilavasitə rəqslərin məzmunu, süjeti, yaranma şəraiti və səbəbləri, eləcə də melodiya, ritm və s. meyarlar üzərindən aparılmışdır. Xoreoqrafik planda verilən əsas təsnifat isə kişi və qadın rəqsləri qrupu ilə məhdudlaşmışdır. Lakin xalq rəqslərimizin zəngin plastikası, xoreoqrafik məzmunu onların bir sıra meyarlar əsasında təsnifatını aparmağa imkan verir. Məsələn, bunlardan biri kişi və qadın rəqslərinin solo və kollektiv ifası ilə bağlı qrupların əmələ gəlməsi ilə bağlıdır. Belə ki, həm kişilər, həm də qadınlar tərəfindən solo və kollektiv şəkildə ifa edilən xalq rəqslərimiz mövcuddur. Buna misal olaraq, "Qazaxı", "Şələqoy", "Qaytağı" rəqsləri kişilərdən tərəfindən kollektiv ifa olunur. "Qoçəli", "Heyvagülü" və s. isə daha çox solo ifada təqdim olunur. Eləcə də qadın rəqslərindən "Uzundərə", "Tərəkəmə", "Qaval", "Vağzalı" və s. solo; "Nəlbəki", "Qıtqılıda" və s. rəqslər isə kollektiv və ya qrup şəklində icra edilir. Nəticə etibarilə, solo və ya kollektiv rəqslərin icra üsulları, plastik hərəkətlər sistemi də bir-birindən fərqlənir. Bununla bağlı biz Q.Almaszadənin metodik vəsaitindən də informasiya ala bilərik. Bu tərkiblərlə yanaşı, etnik rəqslərin duet ifaları da mövcuddur ki, burada obraz və məzmundan irəli gələrək xoreoqrafiya da dəyişir. Duetlər əsas etibarilə lirik, məzəli, yumor, satirik məzmunlu ola bilər.

Etnik rəqslərin xoreoqrafik təsnifatında obraz-məzmun amili mühüm rol oynayır və tərtib etdiyimiz qrupların həm də bu meyarlardan qaynaqlandığını söyləmək olar. Bu mənada kişi rəqsləri daha səciyyəvidir. Məsələn, R.Bəhmənlinin "Yallı", "Qaytağı", "Cəngi" rəqsləri ilə bağlı tədqiqatları etnik rəqslərin qədim və rəngarəng nümunələri ilə xoreoqraflar üçün zəngin mənbələr təqdim edir. "Cəngi" və "Qaytağı" rəqsləri daha çox igidlik, şücaət, cəsurluq nümayiş etdirən plastik hərəkətlər toplusunu təşkil edir. "Mirzəyi", "Darçını" kimi rəqslər isə daha aramlı, təmkinli, amiranə hərəkətlərlə səciyyəvidir. Bu qrupları fərqləndirən meyarlardan biri də tempdir. Kişi rəqsləri üçün daha çox sürətli

temp xarakterik olsa da, müəyyən rəqslər (əsas etibarilə yaşlı nəsil tərəfindən ifa edilən) aramla ifa olunur.

Etnik rəqsləri icra olunduğu sxemlərə görə də müəyyən qrupda cəmləmək mümkündür. Bu qrup dairəvi rəqslərlə bağlıdır və qədimliyi ilə seçilən Yallı və Halayları ehtiva edir. Bu rəqslər tarixi əhəmiyyəti etibarilə bir sıra tədqiqatlarda araşdırma mövzusu olmuşdur. Dairə şəklində ifa olunan rəqslər demək olar ki, dünyanın bütün xalqlarında müşahidə edilir və onun sakral mənası Azərbaycan ərazisində yaşayan etnoslara da şamil olunur. Məlumdur ki, burada yaşayan insanlar qədim zamanlardan oda, atəşə, eləcə də günəşə sitayiş etmişlər. Od ətrafında dairə şəklində fırlanmaq ayin mərasimlərinin əsas hissəsi olmaqla yanaşı, məhsul, bolluq, istilik rəmzi kimi günəş obrazını da simvolizə etmişdir. F.Nəbiyevanın tədqiqatı bilavasitə dairəvi rəqslərin öyərnilməsinə həsr olunmuşdur: "Dairəvi ayinlərin izlərini günəşin və alovun şərəfinə keçirilən mərasimlərdə, şamanların rəqsə bənzəyən hərəkətlərində, sufi dönmələrində, eləcə də dairəvi ayinlərin rəqs şəkli almış süjetli növü olan müasir dairəvi oyun rəqslərində müşahidə etmək mümkündür" [8, s.4]. Tədqiqatçının da haqlı olaraq qeyd etdiyi kimi, etnik rəqslərin müasir ifa nümunələrində dairə sxeminin istifadəsi çox rast gəlinəndir. Bu sxem elementi həm orijinal məzmununda dairənin iştirak etdiyi xalq rəqslərində, həm də xoreoqraflar tərəfindən folklor materialları əsasında qurulan kompozisiyalarda tez-tez tətbiq edilir. Bu da dairə elementinin qədim təfəkkürün izləri kimi özünü göstərməsi ilə bağlıdır. Etnik rəqslərdən "Halay", "Yallı", "Şələqoy", "Qazaxı" və digərlərində dairə sxemi əsas mövqedə çıxış edir. Dairəvi rəqslər qrupuna xas olan bu cəhətlə yanaşı, həm də burada kollektiv ifanın üstünlük təşkil etməsi məsələsini də qeyd etmək lazımdır. Burada adıçəkilən və bir sıra digər rəqslər məhz kollektiv ifa ilə səciyyəvidir. Solo çıxışlarda da rəqqas və ya rəqqasənin dövrə vuraraq dairə, yarımdairə yaratması, eləcə də qadın rəqslərində solistin ətrafında dairə yaradaraq rəqs edən (bəzən də oturaraq onu sadə əl hərəkətləri ilə müşayiət edən) digər rəqqasələrin ifası da misal ola bilər. Göründüyü kimi dairə məfhumu həm bütöv rəqslərə, həm də hər bir kompozisiyanın daxilində yer alan ayrıca sxem növü kimi mühüm əhəmiyyət daşıyır.

**Nəticə**

Beləliklə, etnik rəqslərin elmi araşdırımalarda tutduğu mövqeyə, əldə edilən elmi nəticələrə nəzər salaraq müəyyən ümumiləşdirmələr aparmaq mümkündür. Sadalanan mənbələrdən irəli gələrək deyə bilərik ki, xalq rəqsləri daha çox musiqişünaslıq araşdırmalarının mərkəzinə dayanır. Lakin, xoreoqrafiya elmində də müəyyən müsbət irəliləyişləri izləmək mümkündür. Bu mənada maraq kəsb edən məsələlərdən biri də etnik rəqslərin məhz bu yöndə təsnif edilməsidir ki, tərtib və təkmilləşdirilmiş qruplaşdırmalara ehtiyac vardır. Bu təsnifatlar ayrı-ayrı tədqiqatlarda yer almış olsa da, onları ümumiləşdirərək müəyyən qruplara ayıra bilirik. Xalq rəqslərinin xoreoqrafik planda qruplaşdırılması onların icra üsullarından irəli gələrək kişi, qadın, solo, duet, kollektiv, lirik aramlı, sürətli və sərt və s. kimi həyata keçirilə bilər. Eyni şəkildə biz öz-özlüyündə çoxsaylı növləri ilə səciyyəvi olan "Yallı" rəqsləri, "Qaytağı" ("Ləzginka"), "Halay" rəqsləri, gəlin havaları və s. kimi qruplaşdırmaları diqqət mərkəzinə gətirərək onları məhz xoreoqrafik məzmundan irəli gələn meyarlarla əsaslandırmağın mümkünlüyünü düşünürük. Bütün bunlar deməyə əsas verir ki, etnik rəqslərin xoreoqrafiya elminin təhlil metodları əsasında öyrənilməsi mühüm və əhəmiyyətlidir. Eləcə də burada hələ də həllini gözləyən mövzular vardır. Əvvəldə də qeyd etdiyimiz kimi, son onilliklərdə müşahidə edilən müsbət tendensiyalar xalq rəqslərinin elmi araşdırılmasında nailiyyətlərin əldə olunacağına inamı artırır. Xüsusilə gənc nəslin xoreoqrafiya sənətinə olan marağı isə bu inamın doğrulacağını deməyə əsas verir.

## ƏDƏBİYYAT

1. Abdullayeva, E. Ə. Əlibaba Abdullayev. Bakı: Adiloğlu, 2005. 120 s.
2. Almaszadə, Q.H. Azərbaycan xalq rəqsləri (metodik vəsait). Bakı: Birləşmiş nəşriyyat, 1959. 150 s.
3. Bəhmənli R. Azərbaycan gəlin havaları. Bakı, Elm və təhsil, 2021. 36 s.
4. Bəhmənli R. Azərbaycan Qaytağı rəqsləri. Bakı, Mütərcim, 2019. 72 s.
5. Bəhmənli, R.B. Azərbaycan xalq rəqsləri. Bakı: Adiloğlu, 2002, 141 s.
6. Həsənov, K.N. Qədim Azərbaycan xalq rəqsləri. Bakı: İşıq, 1983. 60 s.

7. Həsənov, K.N. Azərbaycanın qədim folklor rəqsləri. Bakı: İşıq, 1988. 127 c.
8. Nəbiyeva F.R. Dairəvi ayin rəqsləri musiqi folklorunda xalqlararası identifikasiya faktoru kimi. Sənəşünaslıq üzrə fəl.dok.diss.avtoreferatı. Bakı, 2018. 33 s.
9. Rəhmanlı Ə., Bəşirov X. Milli rəqs sənəti. Bakı: Ecoprint, 2019. 579 s.

rus dilində

10. Баглай, В.Е. Этническая хореография народов мира. Р.на Дону: Феникс, 2007. 405 с.
11. Карпенко В.Н., Карпенко И.А. Народный танец: традиции сохраненные и приумноженные. Culture and Civilization. Vol.8, Is. 5B, 2018. s.339-346.

***Bakı Xoreoqrafiya Akademiyası, dissertant***
***e-mail:gulmemmed.shahverdiyev@mail.ru***

**Gulmemmed Sahverdiyev**

**ISSUES OF SCIENTIFIC RESEARCH AND CLASSIFICATION ETHNIC DANCES**

The presented article examines the place of ethnic dances in scientific research and highlights current problems related to classification issues. The author provides information about sources in various fields of science in which folk dance research is conducted. The article also emphasizes the importance of studying folk dance directly in the science of choreography. Among the problems that are important to study in this area, the issue of classification comes into focus. The author expresses his attitude on this issue. At the same time, the importance of classifying ethnic dances in this direction is shown and its possible criteria are presented.

**Keywords:** *ethnic dances, classification, choreography, music, circle, ritual.*

**Гульммед Шахвердиев**

**ВОПРОСЫ НАУЧНОГО ИССЛЕДОВАНИЯ И КЛАССИФИКАЦИИ ЭТНИЧЕСКИХ ТАНЦЕВ**

В представленной статье рассматривается место этнических танцев в научных исследованиях и освещаются актуальные проблемы, связанные с вопросами классификации. Автор предоставляет информацию об источниках в различных областях науки, в которых проводятся исследования народных танцев. Также в статье подчеркивается важность изучения народного танца непосредственно в науке хореографии. Среди проблем, которые важно исследовать в этой области, в центр внимания выдвигается вопрос классификации. Автор выражает свое отношение по данному вопросу. В то же время показана важность классификации этнических танцев по данному направлению и представлены ее возможные критерии.

**Ключевые слова**: *этнические танцы, классификация, хореография, музыка, круг, ритуал.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.01.2024**
**Son daxilolma tarixi:13.02.2024**